Tarix və onun problemləri, №3 2009

**ƏLƏKBƏR CABBARLI**
*Naxçıvan Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV: NAXÇIVANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFI

Azərbaycanda elmin və təhsilin çoxəsrlik zəngin ənənəsi vardır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra elm və təhsilə olan qayğı ön plana çəkilmiş, bu istiqamətin sürətlə inkişaf etdirilməsi dövlət siyasətinin aparıcı sahələrindən birinə çevrilmişdir.

**«Təhsil millətin gələcəyidir»** - deyən dahi öndərimiz Heydər Əliyev heç təsadüfi deyil ki, hakimiyyətə gəlişinin ilk günlərindən təhsilə qayğını ön plana çəkmiş, ölkənin sosial-iqtisadi inkişafında onun (təhsilin) aparıcı mövqeyə malik olduğunu nəzərə alaraq, ölkənin tərəqqisi üçün bütün potensial imkanlardan istifadəyə hərtərəfli şərait yaratmışdır.

**«Məktəb, maarif, təhsil işi ilə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir»** - deyən ulu öndər ölkənin gələcək perspektivi naminə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox ciddi islahatlar keçirməyə başladı. Onun sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram»ı bu sahədə böyük əks-səda doğurdu. Yeni-yeni məktəb binaları isə əsaslı təmir olunub yenidən istifadəyə verildi.

Dünya sivilizasiyasının tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verən xalqlar, dövlətlər və dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya mədəniyyətinə, sivilzasiyaya böyük töhfə vermiş olurlar. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev də məhz belə xoşbəxt taleli dahi insanlardandır. Çünki bütün sahədə olduğu kimi, təhsil sahəsində də əldə etdiyimiz uğurlar, inkişaf məhz bu dahi insanın adı və əməlləri ilə bağlıdır.

Tarixə müraciət etsək, görərik ki, Azərbaycan elmi və milli təhsili son 40 ilə yaxın bir dövrdə keçmiş ittifaq miqyasında və beynəlxalq aləmdə geniş dairədə tanınmış, özünəməxsus nüfuz qazanmışdır.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da elmin və milli təhsilin inkişafı, məhz Heydər Əliyevin yorulmaz fəaliyyəti sahəsində mümkün olmuşdur. Qədim və zəngin ənənələri ilə tanınan Naxçıvan regionunda elm və təhsil Heydər Əliyevin fəaliyyəti illərində daha da inkişaf etmişdir. Naxçıvanda Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin formalaşdırılması, dövlət və özəl ali təhsil ocaqlarının təşkili Heydər Əliyev fəaliyyətinin nəticəsi idi.

Naxçıvanda Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi əvvəlcə Heydər Əliyevin təşəbbüsü əsasında Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 7 iyul 1972-ci il tarixli qərarı ilə yaradılmış Naxçıvan Regional Elmi Mərkəzi kimi fəaliyyətə başlamışdır. Ulu öndərin qayğısı nəticəsində qısa müddətdə Naxçıvan Regional Elmi Mərkəzinin maddi-texniki bazası və bu mərkəz üçün zəruri kadr potensialı formalaşdırılmış, normal iş şəraiti yaradılmışdır.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə Naxçıvan Muxtar Respublikasında regional elmi mərkəzlə yanaşı, digər elmi tədqiqat müəssisələrinin də yaradılmasına və daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Qısa müddətdə Naxçıvan kompleks - zona Təcrübə stansiyası, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq stansiyası və Naxçıvan «Araz» Elmi-İstehsalat Birliyinin təşkil olunması və onların səmərəli fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasında böyük nailiyyətlər əldə edilmişdir.

Ümummilli lider Heydər Əliyevin qayğısı ilə hələ XX əsrin 70-ci illərində Şamaxı Astrofizika Rəsədxanasının Batabat bölməsi yaradılmışdır.

Möhtərəm Prezidentimiz Heydər Əliyev Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə həm də respublikanın elm adamları ilə görüşür, onlara öz dəyərli məsləhətlərini verirdi.

Ümumiyyətlə, Heydər Əliyev özünün çoxillik dövlətçilik fəaliyyəti dövründə yaradıcı ziyalılara, elm, təhsil və mədəniyyət xadimlərinə həmişə böyük diqqət və qayğı göstərmiş, öz ətrafında milli ziyalıların ən tanınmış, adlı-sanlı nümayəndələrini birləşdirmiş, daim onlarla birgə işləmişdir. Fəaliyyətinin Naxçıvan mərhələsində də o, bu ənənəyə sadiq qalmışdır.

1992-ci ildə Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyinin dövlət səviyyəsində keçirilməsində ulu öndərin mühüm rolu olmuşdur.

Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti 1967-ci ilin sentyabr ayında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi təşkil olunmuşdur. Az sonra 1972-ci ilin iyun ayında Azərbaycan Respublikasına rəhbərlik edən Heydər Əliyevin qayğısı nəticəsində Naxçıvan filialı müstəqil Pedaqoji İnstituta çevrilmişdir.

Uzun illərdən sonra, 29 dekabr 1990-cı ildə Azərbaycan Respublikası Nazirlər kabinetinin 584 saylı qərarı ilə Pedaqoji İnstitutun bazasında Naxçıvan Dövlət Universiteti yaradılmışdır.

Heydər Əliyev 12 oktyabr 1992-ci ildə Naxçıvan Dövlət Universitetinə gəlmiş «Bazar iqtisadiyyatına keçid şəraitində sərhədyanı ticarətin və iqtisadi əlaqələrin təşkili» mövzusunda keçirilən simpoziumda iştirak etmiş, dərin məzmunlu çıxışları ilə qiymətli tövsiyyələr vermişdir.

Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra da Naxçıvan Muxtar Respublikasına diqqət və qayğısını əsirgəməmiş elm və təhsilin inkişafı üçün böyük səy göstərmişdir.

Belə ki, Naxçıvan Dövlət Universitetinin yenidən qurulmasına və daha da inkişaf etdirilməsinə daim böyük qayğı göstərmişdir. 1999-cu ildən tələbələrin istifadəsinə verilən 1600 yerlik yeni tədris korpusu ulu öndərimiz Heydər Əliyevin Azərbaycan ali təhsilinə, konkret olaraq Naxçıvan Dövlət Universitetinə böyük, əvəzedilməz töhfəsi idi.

11 oktyabr 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun açılmasında ölkə prezidenti Universitetin keçdiyi şərəfli yola yüksək qiymət verərək demişdir. **«Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Qonşu ölkələrdən – Türkiyədən, İrandan buraya təhsil almaq üçün tələbələr gəlir və bu universitetin dünyanın başqa universitetləri ilə elmi, təhsil və başqa əlaqələri vardır. Bunlar hamısı bir daha onu sübut edir ki, Naxçıvanda təhsilə, elmə, mədəniyyətə həmişə qayğı göstərilir, yüksək münasibət göstərilir və naxçıvanlılar da nəyə qadir olduqlarını dünyaya həmişə nümayiş etdiriblər».**

Ulu öndər Heydər Əliyevin milli təhsilə qayğısı nəticəsində Naxçıvan Dövlət Universiteti özünün yeni və xüsusi inkişaf dairəsinə qədəm qoydu. İndi Naxçıvan Dövlət Universiteti demək olar ki, Azərbaycan ali məktəbləri arasında xüsusi yer tutur. Burada yüksək ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Beynəlxalq əlaqələrin inkişafına ciddi qayğı göstərilir. Hazırda Naxçıvan Dövlət Universiteti Amerikanın Perdu, Fransanın Paris, İngiltərənin Preston, Almaniyanın Braunşvayq, Türkiyənin İs-

tanbul, Ankara, Ərzurum, Qars, Van Universitetləri, İran İslam Respublikasının Təbriz Universiteti və digər universitetlərlə geniş əlaqələrə malikdir.

Əlbəttə, bütün bunlar Heydər Əliyevin Naxçıvanda elmə və təhsilə göstərdiyi qayğının nəticəsidir. Elmin inkişafını daim diqqət mərkəzində saxlayan ölkə başçısının 7 avqust 2002-ci il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması barədə verdiyi sərəncam regionun müxtəlif yönümlü problemlərinin araşdırılıb öyrənilməsinə, burada gənc istedadların elm sahəsinə daha geniş cəlb olunmasına şərait yaratdı. Elm tariximizdə misilsiz dəyərə malik olan bu sənəd qədim Naxçıvan diyarının zəngin elm mərkəzlərindən birinə çevrilməsinə real imkanlar açdı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan MEA-nın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə ümummilli liderimiz demişdir: **«Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən, dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var...».**

Ulu öndərin müvafiq sərəncamına uyğun olaraq, Azərbaycan MEA Naxçıvan Bölməsində 6 elmi tədqiqat institutu – Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Bioresurslar, Təbii Ehtiyatlar, Batabat Asirofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradıldı.

Xalqımızın ulu öndəri Heydər Əliyev tərəfindən əsası qoyulan AMEA-nın Naxçıvan Bölməsi muxtar respublikada elmi mühitin canlanmasına və formalaşmasına bu gün öz töhfəsini verməkdədir.

Ulu öndərin təhsil sahəsində həyata keçirdiyi islahatlar arasında ali təhsil pilləninin həm məzmun, həm də struktur və kəmiyyət baxımından inkişafı da mühüm məsələ kimi qarşıya qoyuldu. Gənc dövlətimizin gələcəyini elmdə, təhsildə görən ümummilli liderimiz bir çox təhsil müəssisələrinin yaradılmasına və inkişafına xüsusi fikir verdi. «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikasının 13 iyun 2000-ci il tarixli fərmanı ilə ölkəmizdə analoqu olmayan elmi təhsil müəssisəsi – Azərbaycan Müəllimlər İnstitutu və onun 12 bölgədə regional filialları yaradıldı.

Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan Naxçıvan Müəllimlər İnstitutu da məhz bu qayğı və diqqətin bəhrəsidir. İnstitut fəaliyyətə başladığı ilk günlərdən ona bəslənilən ümidləri doğrultdu. Təlimin yüksək səviyyədə aparılması, gənclərimizin milli-mənəvi dəyərlərə yiyələnməklə milli ruhda tərbiyə olunması əsas məsələ kimi qarşıya qoyuldu. Bu sahədə bir çox uğurlar əldə edildi. Məhz bunun nəticəsidir ki, Naxçıvan Müəllimlər İnstitutu 26 avqust 2003-cü ildən müstəqil institut kimi fəaliyyətini davam etdirir.

Göründüyü kimi, dünyanın ən böyük siyasət adamı olan Heydər Əliyev ömrünün əsas hissəsini Azərbaycan xalqına, onun rifahının yüksəlməsinə, dünya xalqları arasında şərəfli yer tutmasına, elminin, təhsilinin və mədəniyyətinin inkişafına sərf etmişdir. Elə bunun nəticəsidir ki, milli istiqlal qazanmış xalqımız öz elminin, təhsilinin və mədəniyyətinin səviyyəsi ilə Dünya xalqları arasında özünə layiq yer tutdu.

Elmə, təhsilə dövlət qayğısının təməlini qoymuş ümummilli liderimizin bu şərəfli yolunu ölkə prezidenti İlham Əliyev cənabları bu gün uğurla davam etdirir. Belə ki, onun rəhbərliyi ilə Azərbaycanın təhsil sistemi özünün yeni mərhələsinə qədəm qoymuşdur.

## ƏDƏBİYYAT

1.Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti.Naxçıvan, «Qeyrət»,2002
2.Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti. Naxçıvan, «Qeyrət»,1998
3.«Şərq qapısı» 7 oktyabr 2003
4.«Şərq qapısı» 10 dekabr 2004
5.«Nuh Yurdu» 7 avqust 2006
6.«Nuh Yurdu» 16 avqust 2006
7.Əsrə bərabər otuz il. B.,»Qorqud»,2000

**АЛЕКБЕР ДЖАББАРЛЫ**
***Нахичеванский Государственный Университет***

### ГЕЙДАР АЛИЕВ: РАЗВИТИЕ НАУКИ И ОБРАЗОВАНИЯ

В статье рассказывается о независимой заслуге общенационального лидера Гейдара Алиева в развитии культуры и духовной жизни азербайджанского народа, а также о приходе к власти Г.Алиева, о деятельности и достижениях в области культуры, науки и образования, которые были на переднем плане.

**ALIEKBER JABBARLI**
***State University of Naxhchevan***

### HEYDAR ALIYEV: DEVELOPMENT OF SCIENCE AND EDUCATION.

In the article saying about irreplaceable desert of unination lider of Heydar Aliyev in development of culture and spirit life of Azerbaijan people, and so reigh of H. Aliyev, About activity and achievement in sphere of culture, science and education, which were in first plane.

***Rəyçilər: dos.İ.Kəngərli, dos.R.Bağırov,***
***Naxçıvan Dövlət Universitetinin «ümumi tarix» kafedrasının 30 sentyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülümşdür (protokol №02).***